

Vəli Qaraçaylı

## BU GÜN

Sevgiylə yuyunan ürəklərə bax,
Sevgiylə öyünən ürəklərə bax,
Sevgiylə döyünən ürəklərə bax,
Arzular dil açıb danışır bu gün,
Məhəbbət məşəli alışır bu gün.

Qonaqlar hər yandan axışıb gəlir,
Qardaşlar-bacılar şənlənib gülür.
Sevinc yaşlarını yanaqdan silir,
Xınalar əllərə bulaşır bu gün,
Məhəbbət məşəli alışır bu gün.

Açılan qönçələr, güllər sizindi,
Barmağı üzüklü əllər sizindi,
Xoş günlər bəxş edən illər sizindi,
Xəyallar göylərdə dolaşır bu gün,
Məhəbbət məşəli alışır bu gün.

Ruziniz bol ola, hey aşıb-daşa,
Oğullu-uşaqlı yaşayın qoşa.
Birgə ömür sürün, çatın yüz yaşa,
Badələr səs salıb yaraşır bu gün,
Məhəbbət məşəli alışır bu gün.

Sənətkar «Vağzalı» havası çala,
Sevginiz dad versin şərbətə-bala.
Qurun sədaqətdən alınmaz qala,
Ay Vəli, ilhamın dağ aşır bu gün,
Məhəbbət məşəli alışır bu gün.

## KAMAN AĞLAYIR

Oxumamğa eyib bildik muğamı,
Habilin əlində kaman ağlayır.
Mahnının kökündən sildik muğamı,
Habilin əlində kaman ağlayır.

Uçub dağılıbdı elin bir yanı,
Qarğadan seçmirik telli durnanı.
Toyda bəyənmirik qara zurnanı,
Habilin əlində kaman ağlayır.

Ustadlar keçiblər tufandan, seldən,
Oxuya bilməyən müğənni zildən.
Ulduzam söyləyir, düşməyir dildən,
Habilin əlində kaman ağlayır.

Nadanlar gülüşür görəndə sazı,
Muğanın yerinə dinləyir cazı.
Vəli dərd içində qarşılar yazı,
Habilin əlində kaman ağlayır.

## DAĞLARIN ÇİÇƏYİ

*(Şairə Nazilə Səfərliyə)*

Dağların, yaylağın, çölün-çəmənin
Ən gözəl ətirli çiçəyi sənsən.
Güllərin içində ən çox sevdiyim
Şehli nilufərin ləçəyi sənsən.

Mən sənə quzeyin qarı deyirəm,
Mən sənə bağların narı deyirəm.
Dünyanın incisi, varı deyirəm,
Yüz incəbel qızın göyçəyi sənsən.

Elin Səfərlidi, adın Nazilə,
Səni bənzədirəm çiçəyə-gülə.
Vəli kaş dönəydi bir an bülbülə,
Dağların başının örpəyi sənsən.

## QARABAĞA

Boz atımı yəhərlərəm,
Dəli könlü qəhərlərəm.
Düşmən kefin zəhərlərəm,
Hücum edək Qarabağa.

Dərd-bəlaya düşüb canım,
Hanı Nəbim, Həcər xanım?
De nə zaman coşar qanım? –
Hücum edək Qarabağa.

Mehdi də çoxdan yatıbdı,
Aynalı da pas atıbdı.
Başımı düşmən qatıbdı,
Hücum edək Qarabağa.

Qarabağda Şuşa zirvə,
Ermənidən olmaz kirvə,
Ələ düşərsə girəvə,
Hücum edək Qarabağa.

Xəbər verək yağılara,
Meyvəsiz qalan bağlara,
Haray salaq o dağlara,
Hücum edək Qarabağa.

## ŞUŞAMI QAYTARAM

Qarı düşmən sinəmizi dağladı,
Qarabağ başına qara bağladı.
Mehdinin, Həzinin ruhu ağladı,
Bu külü kim tökdü mənim gözümə?! -
Şuşamı qaytaram gərək özümə.

Vətənin üstündən qara yel əsdi,
Şuşa yollarını boran, qar kəsdi.
Bu qədər dözmüşük, bilin əbəsdi,
Gör necə məhkumuq sənsiz dözümə,
Şuşamı qaytaram gərək özümə.

Vurğun gözəl deyib, boşalan dolur,
Xarı Bülbülüm də dözməyib solur,
Taleyin xaricdə guya həll olur,
Mən zəhər qatmışam şirin sözümə,
Şuşamı qaytaram gərək özümə.

Evin möhkəmliyi himə gərəkdi,
Aşığın barmağı kimə gərəkdi,
Qarabağ Şuşasız kimə gərəkdi?! –
Su töküblər ocağıma-gözümə,
Şuşamı qaytaram gərək özümə.

## ATALAR

Övladı ərsəyə yetirmək üçün,
Bağlar salıb, ağac əkib atalar.
Zəhmət çəkib alın tərim siləndə
Bildim necə zəhmət çəkib atalar.

Çat-çat olub əllərinin qabarı,
Bizə dadızdırıb bitən nübarı.
Salıb ürəyinə dərdi-qubarı,
Od-alov içindən keçib atalar.

Bizə yedizdirib, özü doymayıb,
Külfətini ac-yalavac qoymayıb.
Namərdi ayağın tozu saymayıb
Yaxşını yamandan seçib aatalar.

Dizindən taqəti tükənsə belə,
Yoruldum kəlməsin almayıb dilə.
Oğul-qız yolunda çox girib selə,
Qeyrət kasasını içib atalar.

Həyatda silinməz iz qoyub gedib,
Sönməz ocağında köz qoyub gedib.
Ay Vəli, hikmətli söz qoyub gedib,
Köç edib cənnətə köçüb atalar.